4 və 5 mart 2013-cü il tarixlərdə Yaponiya hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində aşağıdakı imzalama mərasimləri keçirilmişdi.

**1. "Lerikin mərkəzi xəstəxanasının pediatriya şöbəsinin təmiri" layihəsi**

Layihənin əsas məqsədi Lerikin özündə və kəndlərində yaşayan müalicəyə ehtiyacı olan uşaqlar üçün tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq uşaqların sayı 22 000-dir. Bu layihə üçün Yaponiyanın qrant yardımının ümumi məbləği **123,246 ABŞ** dolları təşkil edir.





**2. "Lənkəranın Zovla kəndində tibb məntəqəsinin tikintisi" layihəsi**

Layihənin əsas məqsədi Zovla və ona yaxın üç kəndin sakinləri üçün yeni tibb məntəqəsi tikməklə tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı 5 800 nəfəri əhatə edir. Bu layihə üçün Yaponiyanın qrant yardımının ümumi məbləği **123,400 ABŞ** dolları təşkil edir.



